+

# AZƏRBAYCAN RESPUBLİKASININ
# SƏHİYYƏ NAZİRİ

# Ə M R

№ 10

Bakı şəhəri "12" fevral 2016-cı il

**"2016-2020-ci illər üçün yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı"nın həyata keçirilməsi barədə"**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 01 dekabr 2015-ci il tarixli 370 nömrəli qərarı ilə təsdiq edilmiş "2016-2020-ci illər üçün yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı"nın icrasının təmin edilməsi məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. "2016-2020-ci illər üçün yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı"nın icrası üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur).
2. Respublikanın səhiyyə idarə və müəssisələrinin rəhbərlərinə tapşırılsın ki, adı çəkilən Tədbirlər Planında nəzərdə tutulan tədbirlərin vaxtında və keyfiyyətli həyata keçirilməsi təmin edilsin və görülən işlər barədə hər yarımilliyin sonunda Səhiyyə Nazirliyinə məlumat təqdim edilsin.
3. Maliyyə-iqtisadiyyat şöbəsinə tapşırılsın ki, illik büdcə sifarişlərində "2016-2020-ci illər üçün yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı"nın reallaşması üçün tələb olunan vəsaitin nəzərdə tutulması təmin edilsin.
4. Əmrin icrasına nəzarət nazir müavinlərinə həvalə edilsin.

**Oqtay Şirəliyev**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 12.02.2016-ci il tarixli 10 nömrəli əmri ilə təsdiq edilmişdir

**"2016-2020-ci illər üçün yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı"nın icrası üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin**

**Tədbirlər Planı**

| | Tədbirlərin adı | Görüləcək tədbirlər | Məsul icraçı | İcra müddəti | Tərəfdaş qurumlar |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| | **1. İmmunizasiya proqramının yüksək prioritetinin saxlanılması** | | | | |
| 1.1. | Respublikada uşaqların peyvəndlərlə əhatə səviyyəsinin 95%-dən az olmayaraq saxlanılması | Rayon səviyyəsində peyvəndlərlə əhatə səviyyəsinin 95-96%-ə çatdırılması | RGEM, şəhər/rayon GEM-ri | 2016-2020 | |
| | | Yerlərdə məqsədli qrupların dəqiq hesablanması, planlaşdırmanın məqsədli qrupun sayına müvafiq aparılması | | | |
| | | Yerlərdə peyvəndlərə əks-göstərişlərin xüsusi yaradılmış komissiyalar tərəfindən təyin edilməsi | | | |
| | | Peyvəndlərdən imtina edən əhali arasında maarifləndirmə işlərinin aparılması | | | |
| 1.2. | Profilaktik peyvənd təqvimində poliomielitə qarşı üç valentli (tOPV) vaksinin iki valentli (bOPV) vaksin ilə əvəz edilməsi | Respublika üçün tOPV-dən bOPV-yə Keçid Planının hazırlanması | RGEM, şəhər/rayon GEM-ri, İTM | fevral-aprel 2016 | |
| | | Yerlərdən tOPV qalıqlarının rayon anbarlarında toplanması və İTM-nə təhvil verilməsi | | | |
| | | bOPV vaksininin şəhər/rayon GEM-nə çatdırılması | | aprel 2016 | |
| | **2. Məqsədli kontingent üçün immunizasiya xidmətlərinə geniş çıxışın təmin olunması** | | | | |
| 2.1. | Məqsədli kontingent üçün profilaktik peyvənd təqviminə uyğun olaraq vaksinlərin, özüməhvolan şprislərin, həlledici şprislərin və immunlaşdırma zamanı əmələ gələn tullantıların | Respublika üçün tələbata uyğun olaraq vaksinlərin, özüməhvolan şprislərin, həlledici şprislərin və immunlaşdırma zamanı əmələ gələn tullantıların zərərsizləşdirilməsi üçün təhlükəsiz qutuların alınması | MİŞ, İTM | 2016-2020 | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | zərərsizləşdirilməsi üçün təhlükəsiz qutuların alınmasının davamlı maliyyələşdirilməsinin təmin edilməsi | | | | |
| 2.2. | Respublika səviyyəsində immunobioloji preparatların saxlanılması üçün anbarlarda “soyuq zəncir” sisteminin tələb olunan həcminin təmin edilməsi məqsədi ilə yeni soyuducuların alınması və sıradan çıxan soyuducu avadanlıqların dəyişdirilməsi | Respublikada səviyyəsində anbarlarda “soyuq zəncir” sisteminin tələb olunan həcminin təmin edilməsi məqsədi ilə yeni soyuducuların alınması və sıradan çıxan soyuducu avadanlıqların dəyişdirilməsi | İTM,<br>RGEM | 2016-2020 | UNİCEF |
| 2.3. | İmmunobioloji preparatların saxlanılması üçün yerli tibb məntəqələri səviyyəsində temperatur rejiminin daima monitorinqinin aparılması üçün onların lazımi texniki avadanlıqla təminatının davam etdirilməsi | Vaksin preparatlarının yerli tibb idarə və müəssisələrində temperatur rejiminin daima monitorinqinin aparılması üçün onların lazımi texniki avadanlıqla təmin edilməsi (LogTag, FreezeTag) | İTM,<br>RGEM | 2016-2020 | UNİCEF |
| 2.4. | İmmunoloji preparatların temperatur rejimini gözləməklə xüsusiləşdirilmiş maşın-refrijeratorlarla yerlərə çatdırılması | Vaksinlərin, özüməhvolan şprislərin, həlledici şprislərin və immunlaşdırma zamanı əmələ gələn tullantıların zərərsizləşdirilməsi üçün təhlükəsiz qutuların bölgü üzrə yerlərə çatdırılması | İTM | Rübdə 1 dəfə | |
| 2.5. | Yerli tibb məntəqələri səviyyəsində immunlaşdırma tədbirlərini həyata keçirən tibb müəssisələrində sıradan çıxmış “soyuq zəncir” sistemi avadanlıqlarının dəyişdirilməsi | Yerlərdə peyvənd saxlanılması üçün nəzərdə tutulan soyuducuların mütəmadi monitorinqi<br>Sıradan çıxmış “soyuq zəncir” sistemi avadanlıqlarının dəyişdirilməsi | Rayon GEM-ləri, yerli tibb idarə və müəssisələri | 2016-2020 | |
| 2.6. | Uşaqların peyvəndlərlə əhatə olunma səviyyəsinin təhlil edilməsi və bu sahədə görülən işin keyfiyyətinin yaxşılaşdırılması üçün zəruri tədbirlərin görülməsi | “Təcrübədə immunlaşdırma” tədris kursunda təqdim edilmiş peyvəndlərlə əhatə səviyyəsinin monitorinq cədvəllərindən istifadə etməklə təhlillərin aparılması<br>Aparılmış təhlillər nəticəsində əhatə səviyyəsinin yüksəldilməsi üçün zəruri tədbirlərin görülməsi | RGEM,<br>rayon GEM-ləri | Hər 6 ay | |
| 2.7. | Ərazilərdə seçmə yolu ilə əhali qrupları arasında peyvəndlə əhatə səviyyəsi üzrə qiymətləndirici sorğunun aparılması | Ayrı-ayrı əhali qrupları arasında əvvəlcədən hazırlanmış sorğu vərəqələri üzrə qiymətləndirici sorğunun aparılması | İSİM,<br>RGEM | 2016-2017 | |
| 2.8. | Immunizasiya ilə əhatənin vaxtında və tam dolğun olunmasını təmin etmək məqsədi ilə yerli səviyyədə səyyar briqadalardan istifadə olunması | Uzaq və gediş-gəliş çətin olan ərazilərdəki məqsədli qrupları immunlaşdırmaya cəlb etmək məqsədi ilə həkim-pediatr və 2 vaksinatordan ibarət səyyar briqadaların təşkil olunması<br>Səyyar briqadaların vaxtlı-vaxtında uzaq və gediş-gəliş çətin olan ərazilərə səfərinin təşkil olunması | Yerli tibb idarə və müəssisələri,<br>rayon GEM-ləri | Mütəmadi | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 2.9. | Peyvəndlərlə əhatə səviyyəsi qeyri-qənaətbəxş olan ərazilərdə tədbirlərinin keçirilməsi | Peyvəndlərlə əhatə səviyyəsi qeyri-qənaətbəxş olan ərazilərdə monitorinqlər keçirməklə səbəblərin araşdırılması | RGEM | Tələb olunduqda | ÜST |
| | | Bu ərazilərdə əlavə immunlaşdırma tədbirlərinin keçirilməsi | | | |
| 2.10. | İmmunlaşdırma tədbirlərini həyata keçirən müalicə-profilaktika müəssisələrinin şok əleyhinə preparatlarla təmin edilməsi | Yerlərdə tibb müəssisələrinin peyvənd otaqlarının hər birinin şok əleyhinə tam komplektləşdirilmiş dəstlərlə təmin edilməsi | Yerli tibb idarə və müəssisələri | Mütəmadi | |
| | **3. Immunizasiya sisteminin təkmilləşdirilməsi** | | | | |
| 3.1. | Immunizasiya proqramı çərçivəsində fəaliyyət göstərən texniki-məsləhətçi və koordinasiya mexanizmlərinin potensialının gücləndirilməsi | Səhiyyə Nazirliyinin 04.10.2013-cü il tarixli 107 nömrəli əmri ilə yaradılmış qrupun işinin təkmilləşdirilməsi | İMTMQ | Mütəmadi | |
| 3.2. | Elektron proqramlardan istifadə etməklə peyvəndlərlə əhatə səviyyəsinin monitorinqinin aparılması | "Elektron sağlamlıq kartı" sistemi və Yoluxucu Xəstəliklərin Elektron Müşahidə Sisteminin imkanlarından istifadə edərək idarə olunan xəstəliklərin təhlilində peyvəndlərlə əhatə səviyyəsinin monitorinq cədvəllərinin hazırlanması, texniki tərtibatçılara təqdim edilməsi və istifadəsi | SENS, RGEM | Mütəmadi | |
| 3.3. | Yoluxucu xəstəliklər üzərində epidemioloji nəzarətin gücləndirilməsi üçün sanitariya-epidemioloji xidmətinin laborator bazasının təkmilləşdirilməsi | Sanitariya-epidemioloji xidmətinin laborator bazasının təkmilləşdirilməsi məqsədi ilə Respublika Taun Əleyhinə Stansiyasının Mərkəzi Referens laboratoriyasının tikintisinin başa çatdırılması, cihaz və avadanlıqla təchiz edilməsi | SOŞİPŞ, RTƏS | 2016 | |
| | **4. İmmunoprofilaktika sahəsində kadr hazırlığı** | | | | |
| 4.1. | Yerlərdə mütəxəssislər üçün epidemioloji və laborator nəzarətə aid təlimlərin keçirilməsi | Epidemioloji və laborator nəzarətə dair yeniliklərin rayonlararası treninq və konfransların keçirilməsi yolu ilə mütəxəssislərə çatdırılması | RGEM | 2016-2020 | |
| | | Respublika səviyyəsində keçirilmiş təlimlərin əsasında yerlərdə həkim və orta tibb işçiləri üçün təlimlərin təşkil olunması | | | |
| 4.2. | ÜST-ün "Təcrübədə immunlaşdırma" təlim kursuna aid metodiki tövsiyələrinin | "Təcrübədə immunlaşdırma" təlim kursuna aid ÜST tərəfindən təqdim olunmuş metodiki | ADHTİ | 2016-2020 | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | həkimlərin və orta tibb işçilərinin diplomdan sonrakı təlim prosesində tədrisi | vəsaitdən (modullardan) istifadə edilməsi | | | |
| **5. İmmunoprofilaktika sahəsində əhali arasında sosial səfərbərliyin aparılması** | | | | | |
| 5.1. | Səhiyyə Nazirliyinin veb-saytı vasitəsi ilə immunoprofilaktika sahəsində əhaliyə müxtəlif məlumatların çatdırılması | Əhalinin maarifləndirilməsi məqsədi ilə immunoprofilaktika haqqında, yeni peyvəndlərin tətbiqi və vacibliyi nəzərə alınmaqla məlumatların vaxtaşırı yenilənməsi və əhaliyə çatdırılması | İSİM, RGEM | Mütəmadi | |
| 5.2. | İmmunlaşdırmaya dair ədəbiyyatın, bukletlərin, vərəqələrin, plakatların çap edilməsi | İmmunlaşdırmaya dair yeni məlumatların hazırlanması, çap edilməsi və tibb müəssisələrinə paylanılması | İSİM, RGEM | 2016-2020 | |
| 5.3. | Kütləvi informasiya vasitələrindən istifadə etməklə əhalinin immunlaşdirilmaya dair məlumatlandırılması | Televiziya və radio verilişlərində uşaqların immunoprofilaktikasının vacibliyi haqqında çıxişların edilməsi, qəzet və digər çap vasitələrində immunlaşdırmaya dair məlumatların yerləşdirilməsi | Mətbuat xidməti | Mütəmadi | Kütləvi informasiya vasitələri |